*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 20 (610)
30 oktyabr 2021-ci il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

DİN DAXİLİ QOŞUNLAR

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Zəngəzur: dünyaya açılan dəhliz

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Prezident Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Prezidenti İlham Əliyev qarşılayıb.

Dövlət başçıları Füzuli Beynəlxalq Hava Limanının rəmzi açılışını bildirən lenti kəsiblər və onlara rəmzi açarlar təqdim edilib.

Prezidentlər hava limanında yaradılan şəraitlə tanış olublar.

AZAL-ın prezidenti Cahangir Əsgərov dövlət başçılarına görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının uçuş-enmə zolağının uzunluğunun 3 min, eninin isə 60 metr olduğu, istənilən tip hava gəmisini qəbul etmək imkanlarının yaradıldığı, müasir infrastrukturla təchiz olunan terminalın saatda ən azı 200 sərnişinin buraxılışına imkan verdiyi vurğulanıb. Hava limanında baqaj konveyerlərinin, qeydiyyat sisteminin, VIP zalların, mağazaların, restoranların və digər zəruri məntəqələrin yaradıldığı, sərnişinlərin rahatlığı üçün bütün meyarların mövcud olduğu diqqətə çatdırılıb.





Zəngilan və Laçında beynəlxalq hava limanlarının tikildiyi, onların inşası ilə regionun nəqliyyat imkanlarının daha da genişləndiriləcəyi də qeyd olunub.

Beynəlxalq hava limanının istifadəyə verilməsi bölgəyə səfər edənlərin rahatlığını təmin etməklə yanaşı, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək, ümumilikdə, bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq.

Dövlət başçılarına Cocuq Mərcanlıda açılacaq Suvenir İstehsalı Müəssisəsinin fəaliyyəti barədə də məlumat verilib.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına Şuşanın simvolu olan "Xarıbülbül" təsvirli saatları hədiyyə edib.

Həmin gün prezidentlər Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olublar.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlət başçılarına ətraflı məlumat verib.

Daha sonra Azərbaycan və Türkiyə prezidentləri Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl - Zəngilan - Ağbənd avtomobil yolunun təməlini qoyublar.

Səfər çərçivəsində dövlət başçıları Zəngilan rayonunda da olublar.

"Dost Aqropark"ın təməlini qoyan və aqroparkın ərazisində çinar ağacı əkən prezidentlərə Zəngilanda həyata keçiriləcək işlər barədə məlumat verilib. Bildirilib ki, "Dost Aqropark" layihəsi üç mərhələdə icra olunacaq. Layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcəyi, kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcəyi diqqətə çatdırılıb. Əlavə olunub ki, bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

"Anadolu" agentliyinin Vətən müharibəsini özündə əks etdirən fotosərgisinə baxışdan sonra Prezident Rəcəb Tayyib Ərdoğan ön sözünü yazdığı və "Anadolu" agentliyi tərəfindən hazırlanan "Qarabağ Zəfəri" kitabını ölkəmizin rəhbərinə təqdim edib.

Zəngilanın Ağalı kəndinə gələn dövlət başçılarının şərəfinə düzülən fəxri qarovul dəstəsini Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı salamlayıb.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçib.

Kənd təsərrüfatı naziri İnam Kərimov dövlət başçılarına "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlər barədə məlumat verib.

Bildirilib ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə edilməklə tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisinin sürətlə davam etdirildiyini deyən kənd təsərrüfatı naziri "Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunacağını, piyada və velosiped yollarının çəkiləcəyini, bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şəraitin yaradılacağını qeyd edib.

Sonra prezidentlərin təkbətək görüşü keçirilib və dövlət başçıları mətbuata birgə bəyanatlarla çıxış ediblər.

**DİN-in Mətbuat xidməti**

# ONLAR BİZƏ QƏLƏBƏ BƏXŞ ETDİLƏR

## *Paytaxtda və bölgələrdə anım mərasimləri keçirilir*






**Tarixə 44 günlük savaş kimi düşən Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının paytaxtda və bölgələrdə anım mərasimləri keçirilir.**

Şəhid hərbi qulluqçu Asif Talıblının ildönümü münasibətilə Daxili İşlər Nazirliyinin, eləcə də Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları şəhidin məzarını ziyarət edib, ailəsi ilə görüşüblər. Mərasim iştirakçıları şəhidin məzarı üzərinə tər çiçəklər düzərək Vətən uğrunda canlarından keçənlərin əziz xatirəsinin daim qəlblərdə yaşayacağını, onların döyüş meydanında göstərdikləri şücaətin gənc nəsillər üçün örnək olduğunu bildiriblər.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə çavuş A.Talıblı ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Ucar rayonunda da Vətən müharibəsi şəhidinin anım mərasimi keçirilib. Daxili İşlər Nazirliyi və Rayon Polis Şöbəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları şəhid hərbi qulluqçu gizir Vüqar Ələkbərovun məzarını ziyarət edərək önünə əklil qoyub, üzərinə tər çiçəklər düzüblər.

Mərasim iştirakçıları onun ömür yolundan, eləcə də Vətən müharibəsində göstərdiyi igidliklərdən danışıblar.

Dövlət başçısının müvafiq sərəncamları ilə gizir V.Ələkbərov ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Torpaqlarımızın müdafiəsi uğrunda şəhid olan polis əməkdaşı, Azərbaycanın Milli Qəhrəmanı Səfəralı Məmmədovun doğum günündə Masallı Rayon Polis Şöbəsinin əməkdaşları onun xatirəsinə qoyulmuş abidəni və ev muzeyini ziyarət edib, ailəsinə baş çəkiblər.

Qeyd edək ki, şəhid Səfəralı Məmmədov Ağdam Rayon Daxili İşlər Şöbəsində Post-Patrul Batalyonunda taqım komandiri vəzifəsində xidmət edib. O, 1992-ci il fevral ayının 16-da Xocavənd rayonunun Qaradağlı kənd sakinlərini xilas edən zaman şəhid olub.

*Davamı 2-ci səhifədə*

2 - 2_Layout 1 29.10.2021 12:46 Page 1



# ONLAR BİZƏ QƏLƏBƏ BƏXŞ ETDİLƏR

## *Paytaxtda və bölgələrdə anım mərasimləri keçirilir*

*Əvvəli 1-ci səhifədə*



Masallı şəhərində küçələrdən birinə və təhsil aldığı məktəbə onun adı verilib, haqqında "Qəhrəman polis" adlı sənədli film çəkilib.

Şəkidə Daxili İşlər Nazirliyinin təmsilçiləri, Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları, o cümlədən, ictimaiyyət nümayəndələri və döyüş yoldaşları şəhid hərbi qulluqçu baş çavuş Elçin Nadirovun il mərasimində iştirak ediblər.

Əvvəlcə E.Nadirovun Şəkidə Şəhidlər məzarlığındakı məzarı ziyarət olunub, üzərinə çiçəklər düzülüb və ruhuna dualar oxunub. Anım mərasimində onun şərəfli ömür yolundan, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdəki şücaətindən bəhs edilib.



Şəhid E.Nadirov Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Saatlı rayonunda da şəhid Anar Məmmədovun məzarı ziyarət edilib, xatirəsi anılıb.

Şəhidimiz ölkə rəhbərinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Keçirilən il mərasimlərində şəhidlərin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə, eləcə də Daxili İşlər Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

**DİN-in Mətbuat xidməti**

# ƏLDƏ OLUNAN MÜSBƏT NƏTİCƏLƏR YÜKSƏK NAİLİYYƏTLƏRİN QAZANILMASINA ZƏMİN YARADIR



12318 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidməti ilə fərqlənən bölmələrindən biri də mayor Rəşad İsmayılovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə funksional vəzifələrindən irəli gələn bütün tapşırıqların icrasına məsuliyyətlə yanaşır, regionda ictimai qaydanın qorunub saxlanılmasında mühüm rola malikdir. Bölmənin cəlb olunduğu əməliyyatlarda qarşıya qoyulan vəzifələri yüksək peşəkarlıqla icra etməsi bunu deməyə əsas verir.

Əldə olunmuş nailiyyətlərdə dəstə komandiri mayor R.İsmayılovun əməyi danılmazdır. O, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları Hərbi Məktəbində ali təhsil alıb. 2006-cı ilin oktyabr ayından Daxili Qoşunların sıralarında xidmət edir. 67987, 16076 və 12318 saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə özünü savadlı və bacarıqlı zabit kimi sübut edib. 2020-ci ilin aprel ayından xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiridir.



Bölmənin döyüş təlimi, ictimai-siyasi hazırlığı, daxili qayda-qanuna riayət edilməsi, bölmənin texnikasının, döyüş sursatlarının və digər əmlakların vəziyyəti, şəxsi heyətin döyüş tapşırıqlarının müvəffəqiyyətlə icra olunmasına cavabdehlik daşıyan komandir qarşıya qoyulan bütün tapşırıqların şəxsi heyət tərəfindən vaxtında və dəqiq yerinə yetirildiyini söylədi. Bildirdi ki, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi hazırlıq, sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq və ixtisas hazırlığından məşğələlər təşkil olunur. Məşğələlərin keçirilməsi zamanı şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına, məşğələ mövzularının dərindən mənimsənilməsinə diqqət yetirilir.

Bundan əlavə, həftənin cümə günləri hərbi qulluqçuların peşəkarlıq vərdişlərinin artırılması və istənilən şəraitdə qarşıya çıxan döyüş tapşırıqlarının keyfiyyətlə icrası məqsədilə gecə təlimləri keçirilir. Təlimlər zamanı bölmə komandiri tərəfindən şəxsi heyətin bilikləri və praktiki vərdişləri şəxsən yoxlanılır: "Tapşırıqların müvəffəqiyyətlə icra olunması şəxsi heyətin qazandığı bilik və vərdişlərdən çox asılıdır. Müvafiq tədris proqramlarına uyğun nəzəri və praktiki məşğələlərin keçirilməsi üçün hərbi hissəmizdə hər bir şərait mövcuddur. Əgər müsbət nəticə əldə etmək istəyiriksə, o zaman şəxsi heyəti bu istiqamətdə mükəmməl hazırlamalı, onların məşğələlərə olan marağının artırılmasını təmin etməliyik. Əldə olunan müsbət nəticələr, təbii ki, yüksək nailiyyətlərin qazanılmasına zəmin yaradır".

Həmçinin, tərbiyə işi saatlarında bölmənin şəxsi heyətilə yüksək nizam-intizama nail olmaq və onun qorunub saxlanılması mövzusunda söhbətlər aparılır. Bu söhbətlərin əhəmiyyətindən söz açan mayor R.İsmayılov dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Elşad Qasımovun əməyini xüsusilə vurğuladı. Onun hərbi qulluqçuların mənəvi-psixoloji durumunun yüksəldilməsi istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyini söylədi.

Xüsusi vasitələrin tətbiqi dəstəsinin qrupları arasında götürmə qrupunun fəaliyyəti müsbət cəhətdən fərqlənir. Kütləvi iğtişaşların qarşısının alınması zamanı digər qrupların köməyi ilə fəal şəxslərin götürülməsi və aidiyyəti üzrə təhvil verilməsi qrupun əsas vəzifəsidir.

Sonda mayor R.İsmayılov hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi dəstəsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə əminliyini ifadə etdi.

**kapitan Xədicə Hacızadə**

# QARŞIYA QOYULAN HƏR BİR TAPŞIRIĞI YERİNƏ YETİRMƏYƏ HAZIR OLAN BÖLMƏ



Hərbi hissələrimizdə fəaliyyət göstərən xüsusi təyinatlıların silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.

25033 saylı hərbi hissənin komandiri polkovnik Rüstəm Dəmirov xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirdi ki, dəstə hər an qarşıya çıxa biləcək qəfləti tapşırıqları uğurla yerinə yetirməyə hazırdır. Hərbi qulluqçulardan kifayət qədər fiziki güc və möhkəm iradə tələb edən məşğələlərdə iştirak edən xüsusi təyinatlılar yüksək peşəkarlıq nümayiş etdirirlər.



Polkovnik R.Dəmirov vurğuladı ki, hərbi hissənin xüsusi təyinatlı dəstəsinin fəaliyyəti digər hərbi hissələrin aidiyyəti bölmələrindən spesifikliyi ilə fərqlənir. Belə ki, təlimlər əsasən çətin iqlim şəraitində təşkil olunub keçirilir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin nümayiş etdirilməsi, vaxtında və düzgün qərarların verilməsi xüsusilə diqqətdə saxlanılır.

Qeyd edim ki, dəstənin şəxsi heyəti sentyabrın 27-dən başlayaraq torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda gedən 44 günlük Vətən müharibəsində böyük cəsarət və qəhrəmanlıq nümayiş etdirib.



Xüsusi təyinatlı dəstənin komandiri mayor Cavid Tağıyev şəxsi heyətlə təlim-məşq proseslərinin hava şəraitindən asılı olmayaraq, davamlı xarakter daşıdığını dedi. Qeyd etdi ki, şəxsi heyətin döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərin təşkili daim təkmilləşdirilir. Məşğələ mövzularının hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsi məqsədilə çoxşaxəli tədbirlər görülür. Hərbi qulluqçuların təlim-tərbiyəsi, mənəvi-psixoloji hazırlığına diqqət yetirilir.

Döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazi və hava şəraitində məşğələlər keçirilir. Fiziki hazırlıq məşğələlərinin keçirilməsində yarımqrup komandirləri də xüsusi fəallıq nümayiş etdirirlər.

Hərbi qulluqçulara cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərk-silah edilməsi üzrə xüsusi metod və vasitələr öyrədilir, praktiki fəaliyyətə üstünlük verilir.

Dəstə komandiri intizamlı və fəal hərbi qulluqçulardan baş çavuşlar Kənan Kərimov, Mehrac Qarayev və Zamiq Ağayevin adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

# MİNAATAN BATAREYA VƏZİFƏLƏRİNİ MÜVƏFFƏQİYYƏTLƏ YERİNƏ YETİRİR



17074 saylı hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın vəzifələri döyüş əməliyyatları zamanı bölmələrin düşmən üzərinə asanlıqla irəliləməsi üçün atəş dəstəyi ilə təmin etməkdir. Düşmənin komanda-müşahidə məntəqəsini, düzünə artilleriya ilə vurulması mümkün olmayan üstüörtülü sığınacaqlarda yerləşən canlı qüvvəsini məhv etmək də batareyanın üzərinə düşən tapşırıqlardandır. Eyni zamanda, düşmən mövqelərinin önünü, gerisini və dərinliklərini iriçaplı silahlarla atəşə tutan batareya keçən bölmələrin sərbəst irəliləməsinə əlverişli şərait yaradır.



Minaatan batareyanın komandiri kapitan Zaur Bağışov sadalanan vəzifələrin yerinə yetirilməsi baxımından şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksək olmasının vacibliyini söylədi. O, hərbi qulluqçuların peşə vərdişlərinin artırılması istiqamətində görülən işlərdən danışdı. Bildirdi ki, şəxsi heyət mütəmadi olaraq praktik məşğələlərə cəlb olunur. Hərbi qulluqçularla "batareya hücumda" və "batareya müdafiədə" mövzularında təlimlər keçirilir, həmçinin, minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri,o cümlədən, təhlükəsizlik qaydaları öyrədilir.

Batareya komandiri şəxsi heyətin təlim və məşğələlərə məsuliyyətlə yanaşdığını, eləcə də hərbi intizama ciddi riayət etdiyini xüsusi olaraq vurğuladı. Əlavə etdi ki, komandiri olduğu batareya yüksək döyüş hazırlığına malikdir və istənilən zaman vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmək qabiliyyətindədir.

O, funksional vəzifələrinin öhdəsindən layiqincə gələn batareya komandirinin müavini-batareyanın baş zabiti leytenant Əliş Məcidovun məşğələlərin keyfiyyətli şəkildə təşkil olunmasında, şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığının yüksəldilməsində fəaliyyətini diqqətə çatdırdı, onun tabeliyindəki hərbi qulluqçulara nümunə olduğunu qeyd etdi.

**baş leytenant**
**Nigar Ağayeva**

3_Layout 1 29.10.2021 11:52 Page 1



*Şəhidlərimiz*

# YARALI SİLAHDAŞINA ÖZÜNÜ YETİRƏRKƏN HƏYATINI QURBAN VERƏN İGİD...

Hər bir şəhidin üzərimizdə böyük haqqı var. Onlar Vətənin toxunulmazlığı, elin qeyrəti naminə canlarını fəda etməklə düşmən tərəfindən öldürülən, əsir götürülən, yurdlarından didərgin salınan, doğma obaları viran qoyulan soydaşlarımızın qisasını gələcək nəsillərə saxlamadılar, bütövlükdə, qalib xalq adımızı öz qanları ilə tarixə yazdılar.

44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyətinin keçdiyi döyüş yolu şücaət nümunələri ilə zəngindir. Respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə son nəfəsinədək hərbi andа sadiq qalmış cəsur hərbi qulluqçularımızdan biri də şəhid baş çavuş Nadirov Elçin Nadir oğludur.

Elçin 1987-ci il dekabrın 5-də Şəki şəhərində anadan olub. Ailənin ikinci övladı idi, Ülkər adlı bacısı var. Anası Rəmziyyə Nadirovanın övladlarının boya-başa çatması və tərbiyəsində zəhməti xüsusi qeyd olunmalıdır. O, fədakar ana kimi Vətənə layiqli oğul yetişdirib. Şəki Dövlət Regional Kollecində musiqi müəlliməsidir. Oğlunun da musiqiyə marağı olub, Şəkidəki 2 saylı uşaq musiqi məktəbində qarmon üzrə təhsil alıb. Bununla yanaşı, Elçin Şəkidəki Mirzə Fətəli Axundov adına 2 saylı, habelə 5 və 7 saylı orta məktəblərdə oxuyub, sonra şəhərdə yerləşən Fizika-riyaziyyat və humanitar təmayüllü liseyə qəbul olunub, 2005-ci ildə buranı bitirib.

Yeniyetməlik illərində Elçin doğma şəhərində idmanın karate növü ilə məşğul olub, sağlam həyat tərzinə, fiziki hazırlığının inkişafına, idmançı məharətinin artırılmasına xüsusi diqqət yetirib. Azərbaycan Respublikası Karate-do Federasiyaları Assosiasiyasının Şəki Regional Şöbəsi tərəfindən keçirilən imtahanlarda müvəffəqiyyət qazanaraq ağ, sarı və yaşıl kəmərlərə layiq görülüb, ona müvafiq dərəcəli diplomlar verilib.

Doğmalarının bildirdiklərinə görə, Elçin böyük-kiçiyə hörmətlə yanaşan, xoşxasiyyətli, səbirli, ailəcanlı, qurub yaratmaq həvəsli, əməksevər gənc idi. Onun taleyinə hələ yeniyetmə ikən həyatın bəzi çətinlikləri ilə üzləşmək yazılıb. Bu amil də onun şəxsi keyfiyyətlərində iz qoyub. Xeyirxah və yardımsevər olması onu tanıyanlarda şəxsinə rəğbət yaradıb. Uşaq yaşlarından gələcəkdə polis olmaq istədiyini deyib.

2006-cı ilin yanvar ayında Elçin müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 25032, 67987 və 17072 saylı hərbi hissələrində hərbi xidmət keçərək, 2007-ci ilin iyul ayında tərxis olunub.

2007-ci ildə Şəki Dövlət Texnologiya Texnikumunun (hazırda Şəki Dövlət Regional Kolleci) Mühasibat uçotu fakültəsində qiyabi təhsil almağa başlayıb. Ancaq ailənin maddi imkanının məhdud olması sə-



bəbindən təhsili yarımçıq qalıb. Bir müddət müxtəlif yerlərdə işləyib.

2009-cu ilin aprel ayında Elçin həyatının mühüm qərarlarından birini verib. Vətənpərvərlik əqidəsi və hərbi xidmətə marağı səbəbindən Daxili Qoşunların sıralarına qayıdıb. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində snayper, atıcı vəzifələrinə təyin edilib. 2011-ci ilin mart - 2015-ci ilin yanvar aylarında 17074 saylı hərbi hissənin ayrı yerləşən əməliyyat taborunda taqım komandirinin müavini-manqa komandiri, həmin taborun xüsusi vasitələrin tətbiqi bölməsində baş atıcı, atıcı-sanitar, texnik vəzifələrində xidmət edərək geniş təcrübəyə yiyələnib. 2015-ci ilin yanvar ayından 17071 saylı hərbi hissəyə keçirilib, burada xüsusi vasitələrin tətbiqi dəstəsində heyət rəisi vəzifəsinin öhdəsindən bacarıqla gəlib. Həmin ilin oktyabr ayından isə yenidən 17074 saylı hərbi hissədə hərbi xidmət keçərək, xüsusi təyinatlı dəstədə atıcı-istehkamçı vəzifəsini yerinə yetirib. Hərbi xidməti dövründə tutduğu vəzifələrdə komandanlığın etimadını doğruldub.

2015-ci ilin fevral ayının 9-dan mart ayının 7-dək baş çavuş E.Nadirov Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin təşkil etdiyi "Əsas humanitar minaaxtarma kursu"nu keçib. Bununla ələqədar ona müvafiq şəhadətnamə verilib.

Nümunəvi xidməti nəzərə alınaraq, hərbi qulluqçu dəfələrlə mükafatlandırılıb. 2018-ci ilin iyun ayının 26-da III dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif olunub.

17074 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı mayor Sahib İbrahimov bildirdi ki, baş çavuş E.Nadirov nizam-intizamlı, funksional vəzifələrinin, qarşıya qoyulan tapşırıqların öhdəsindən gəlməyi bacaran, öz döyüş hazırlığının yüksəldilməsinə çalışan, ona təhkim olunan silah və xüsusi vasitələrdən mükəmməl istifadə edən, dəstənin təlimlərində fəallıq göstərən peşəkar hərbi qulluqçu kimi şəxsi heyətin yaddaşında qalıb. Dəstənin hərbi qulluqçusu kimi öz məsuliyyətini daim düzgün dərk edib. Silahdaşlarının hörmət və inamını qazanıb.

Komandir nəzərə çatdırdı ki, Elçin Vətən müharibəsinin ilk günlərindən düşmənə qarşı cəsurluqla vuruşub. Ön cəbhənin ayrı-ayrı istiqamətlərində silahdaşları ilə birgə döyüş tapşırıqlarını mətinliklə yerinə yetirib.

16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi, Vətən Müharibəsi Qəhrəmanı kapitan Nicad Bədəlov məlumat verdi ki, Elçinlə səkkiz il birgə xidmət edib. Xüsusi təyinatlının qeyrətli və vətənpərvər hərbi qulluqçu kimi həmişə xatırlanacağını vurğuladı. 2020-ci il sentyabrın 27-dən etibarən Kəlbəcər istiqamətində, Murovdağda döyüşə başladıqlarını dedi. Sonra Cəbrayıl və Füzuli rayonlarının ərazilərində işğalçılara qarşı birgə vuruşublar. Düşmənin müdafiə xəttinin yarılması, mövqelərinin ələ keçirilməsi, onun canlı qüvvəsinin məhv edilməsində Elçin döyüşçü şücaəti göstərib.

Zabit bildirdi ki, Elçin 2020-ci il oktyabrın 15-də, təxminən gündüz saat 3 radələrində Füzuli şəhəri ərazisində ağır yaralanan yoldaşına kömək etməyə cəhd göstərərkən ermənilərin minaatandan açdığı atəş nəticəsində ölümcül yaralanıb. Nicad onu çiyninə alıb və təhlükəsiz yerə aparıb. Son nəfəsində Nicada deyib ki, komandir, özünüzü qoruyun, qisasımızı alın, torpaqlarımız düşmən tapdağında qalmasın.

17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində snayper yarımqrupunun komandiri, Vətən müharibəsi iştirakçısı baş çavuş Samir Mirzəyev Füzuli şəhəri ərazisində Elçinlə eyni gündə yaralanıb. Samir yaralı olaraq həmin gün Elçinin cənazəsi ilə eyni avtomobildə təxliyə edilib. Söylədi ki, yaxın dostu olmuş Elçin barədə danışmaq onun üçün ağırdır. Silahdaşının döyüşlərdə yaralananlara yardım göstərməyə can atdığını, qorxmaz bir xüsusi təyinatlı olduğunu dedi. Öndə gedən döyüşçülərdən biri olub. Dediyinə görə, oktyabrın 15-də Füzuli şəhərinin çıxacağında, "Daş karxa-



nası" adlanan yerdə partlayan minaatan mərmisinin qəlpələri çavuş Mədəni Poladın sağ ayağının dizdən aşağı hissəsini qoparıb, bud nahiyəsi ağır dərəcəli zədələnib. Yaralıya yetişmək və atəş altındakı ərazidən çıxarmaq üçün heç bir tərəddüdsüz özlərini riskə atan iki döyüşçüdən biri olan Elçin düşmənin minaatan mərmisinin partlayışından ağır yaralanıb, ilk tibbi yardım göstərilsə də, onun həyatını xilas etmək mümkün olmayıb. Digər döyüşçü çavuş Ceyhun Abbasovu da həmin məqamda mərmi qəlpələri yaralayıb.

17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində atıcı-radiotelefonçu, Vətən müharibəsi iştirakçısı çavuş Şamil Qədirov danışdı ki, Elçini yaxından tanıyırdı, onun özünə tələbkar yanaşdığını, yerini bilən, yoldaşlığa diqqətli və qayğıkeş olduğunu vurğuladı. Geniş dünyagörüşünə malik Elçindən yoldaşları bəzi məsələlərdə məsləhət alıblar.

Məlumat verdi ki, Vətən müharibəsindən əvvəl Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin tərkibində xüsusi təyinatlıların təlimində iştirak ediblər. Vətən müharibəsinin ilk günlərində Murovdağ döyüşləri zamanı işğalçıların bir neçə postunu ələ keçirdiklərini dedi. Cəbrayıl və Füzuli rayonlarında da ağır döyüşlərin getdiyini, müharibənin hər əziyyətinə dözdüklərini söylədi. Elçin silahdaşlarına mənəvi cəhətdən dəstəyini əsirgəməyib.

Şamilin sözlərinə görə, Elçinin istehkamçı kimi praktiki hazırlığı döyüş tapşırıqlarının yerinə yetirilməsində vacib rol oynayıb. Döyüşlərdən birində onun çantasında olan, düşmənə pusqu qurmaq üçün nəzərdə tutulan minaya güllə dəyərək istiqamətini dəyişib. Həmin anda təhlükə sovuşub. Ancaq başqa bir döyüşdə yaralı silahdaşına köməyə özünü yetirərkən mərmi qəlpələrindən onu heç nə qorumadı...

Vətən müharibəsi qazisi, ehtiyatda olan baş çavuş İbrahim Əhmədov Murovdağ silsiləsi və Cəbrayıl rayonu ərazisində Elçinlə birgə erməni işğalçılarına qarşı döyüşüb. Cəbrayıl rayonu istiqamətində döyüşlərdən birində İbrahim yaralanarkən Elçin ona yardım edərək, atəşə tutulan ərazidən çıxarıb. Döyüş meydanından təxliyyəsində Elçinin rolunu vurğulayaraq, onun fədakarlığını heç vaxt unutmayacağını dedi.

2020-ci il oktyabrın 23-də tərtib edilən ölüm haqqında şəhadətnamədə baş çavuş E.Nadirovun 15.10.2020-ci il tarixdə, Füzuli rayonunda, "hərbi əməliyyat nəticəsində digər növ partlayışlar və qəlpələrlə törənmiş zədələnmələr" səbəbindən həlak olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid Şəki şəhərinin Məzahir Abbasov küçəsində yerləşən qəbiristanlıqdakı Şəhidlər məzarlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15.12.2020-ci il tarixli, 25.12.2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş E.Nadirov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Anasının təşəbbüsü ilə şəhidin xatirə guşəsi və barelyefi düzəldilib. Şəki rayonunun Qoxmuq kəndində yaradılan şəhid bulağı və fotostenddə Elçinin də şəkli var.

Rəfiqə Sadıqovanın müəllifi olduğu "Əbədi yaşayanlar. Şəki şəhidləri" kitabında şəhid hərbi qulluqçumuz barədə məlumat verilib. "Polis" və "Şəki təhsili" qəzetlərində silahdaşımız haqqında məqalələr dərc edilib.

2011-ci il sentyabrın 5-də Elçin Svetlana xanımla ailə qurub. Bu xoşbəxt ailədə Arzu və Zaur adlı övladları dünyaya gəliblər. Svetlana xanım qeyd etdi ki, Elçin üçün ailəsi çox dəyərli idi. Hərbçi ailəsi olduqlarından həmişə qürur duyublar. Qızının göz həkimi, oğlunun isə hərbçi olmasını arzulayırdı. İnanıram ki, uşaqlar böyüyərək atalarının arzularını həyata keçirəcək, qalib ölkəmizin gələcəyinə onun adına layiq töhfələrini verəcəklər.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

*Qazilərimiz*

# "VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇISI OLMAĞIMLA FƏXR EDİRƏM"

"Qazilərimiz" rubrikasının sizlərə təqdim etdiyimiz budəfəki qəhrəmanı çavuş Novruzov Ramiq Elnur oğludur.

Çavuş Ramiq Novruzov 1992-ci il martın 2-də Astara rayonunun Səncərədi kəndində anadan olub. Orta təhsilini Səncərədi kəndindəki şəhid Elman Ağayevin adını daşıyan tam orta məktəbdə alıb. Müddətli həqiqi hərbi xidmətini 2010-cu ilin aprel ayından 2011-ci ilin oktyabr ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışsa da, hərbi xidmətə olan böyük marağı səbəbindən yenidən ordu sıralarına qayıtmağa qərar verib. Beləliklə, 2013-cü ilin iyun ayından Daxili Qoşunların 12318 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 2014-cü ilin dekabr ayından hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirən çavuş R.Novruzov əvvəlcə xüsusi həmlə qrupunda heyət nəfəri, atıcı, pulemyotçu vəzifələrində, 2019-cu ilin iyun ayından yaralandığı günədək isə istehkamçı yarımqrupunda istehkamçı kimi xidməti-vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Xidmət etdiyi dövrdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin Göygöl rayonu ərazisində təşkil etdiyi istehkamçı ixtisası üzrə kursu müvəffəqiyyətlə bitirib və ona müvafiq sertifikat verilib.

12318 saylı hərbi hissədə "Yarasa" şərti adını daşıyan xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi, Vətən müharibəsi iştirakçısı mayor Elman İslamov (Şuşa istiqamətində gedən döyüşlərdə yaralanıb) dəstədə istehkamçı kimi xidmət etmiş çavuş R.Novruzovun yüksək döyüş hazırlığı, hərbi intizamı, nümunəvi xidmətilə hər zaman fərqləndiyini, həmçinin, yoldaşlığa xüsusi önəm verən müsbət keyfiyyətləri ilə kollektiv arasında hörmət qazandığını diqqətə çatdırdı. Bildirdi ki, intizamlı hərbi qulluqçu olan Ramiqi fərqləndirən əsas xarakterik xüsusiyyəti aldığı tap-



şırıqların icrasına məsuliyyətlə yanaşması və layiqincə yerinə yetirməsi olub. Məhz buna görə də qısa bir müddətdə dəstənin komandir heyətinin etimadını qazanıb.

Vətən müharibəsi başlayanda isə Ramiq, özünün də vurğuladığı kimi, torpaqlarımızı işğal edən, saysız-hesabsız vəhşilik törədən, qoca-cavan, qadın-uşaq bilmədən minlərlə dinc soydaşımızın qanına susamış mənfur düşməndən intiqam almaq hissi ilə döyüşlərə qatılıb.

Çavuş R.Novruzovun xidmət etdiyi dəstə əvvəlcə Cəbrayıl, Füzuli rayonlarında mövqelərimizin müdafiəsində dayanıb, burada düşmənin diversiya-kəşfiyyat qruplarının qarşısının alınması üzrə döyüş tapşırıqlarını yerinə yetirib. Bir müddət sonra isə dəstənin şəxsi heyəti ayrı-ayrı qruplara bölünərək Şuşa istiqamətində gedən döyüşlərdə fəal iştirak edib.

Daxili Qoşunların Hərbi Qospitalında keçdiyi döyüş yolu xatirələrini bizimlə bölüşən qazimiz xalqımızın şanlı qələbəsilə bitən Vətən müharibəsindəki iştirakı ilə fəxr etdiyini dedi. Ramiq müharibə zamanı yaxından dostluq etdiyi silahdaşlarının bir qismini itirdiyinə görə üzülsə də, onların döyüşlərdə göstərdikləri qəhrəmanlıqlarla hər zaman qürur duyacağını bildirdi: "Oktyabrın 31-də dəstəmizin şəxsi heyəti Hadruta gəldi. Burada ayrı-ayrı qrupların tərkibinə bölünərək, avtomobillərlə Şuşa istiqamətində hərəkətə başladıq. Bizim qrupa rəhbər mayor Elgün Mirzəliyev təyin olunmuşdu.

Yaxşı yadımdadır, mən dəstəmizin avtomobil yarımqrupunda sürücü əsgər* Nəzir Osmanovun idarə etdiyi avtomobildə idim. Təpəlik və meşəlik ərazi ilə hərəkətdə olduğumuz zaman kolonumuz düşmən artilleriyasının atəşinə məruz qaldı. Düzdür, buna qədər tək-tük atəş olsa da, bir müddət sonra daha da intensivləşməyə başladı. Belə olduqda biz avtomobillərdən enib, ərazidə səpələnməklə özümüzə mövqe tutduq. Hava artıq qaralmışdı. Demək olar ki, göz-gözü görmürdü. Bu zaman ermənilərin atdığı minaatan mərmisinin yaxınlığımızda partlaması nəticəsində baş nahiyəsindən aldığı ağır qəlpə yarasından əsgər* Nəzir Osmanov şəhid oldu, dəstəmizin digər iki hərbi qulluqçusu: baş çavuşlar Elmar İlyasov və Orxan Əhmədov yaralandılar. Yaralıları təxliyyə etdikdən sonra biz ayrı-ayrı qruplar tərkibində piyada şəkildə Şuşa istiqamətində hərəkəti davam etdirdik. Noyabrın 1-də Xocalı rayonunun Çanaqçı-Sığnaq kəndləri istiqamətində hərəkətdə olarkən dəstəmizin digər iki nəfər xüsusi təyinatlısı: çavuşlar Elgün Cəfərov və Ənvər Əmirli düşmənin atdığı minaatan mərmisinə tuş gələrək ağır qəlpə yarası aldılar. Xain ermənilərin uzaq məsafədən olduğumuz mövqeləri minaatanlarla atəşə tutması səbəbindən şəhid və yaralılarımızın olmasına baxmayaraq, düşməndən intiqamımızı almaq üçün dayanmadan irəliləyirdik".



2020-ci il noyabr ayının 4-də tərkibində Ramiqin də olduğu qrup digər qruplarla cəsur döyüşçülərlə birgə Şuşa-Laçın yolu üzərindəki yüksəklikdə yerləşən düşmən mövqelərini darmadağın edərək, Şuşaya gedən yolu nəzarətə götürüblər. Lakin bir müddət sonra düşmən döyüşçülərimizin yerləşdikləri yüksəkliyi üç tərəfdən müxtəlif növ artilleriyadan və iriçaplı silahlardan şiddətli atəşə tutub. Nəticədə dəstənin cəsur döyüşçülərindən 7 nəfər: baş çavuş Təhmasib Mustafayev, gizir Emil İsgəndərov, baş çavuşlar Ruslan Sadıqov, Şahlar Məmmədov, Elvin Abbasov, əsgərlər* Tural Bayramlı və Fərid Vəliyev qəhrəmancasına şəhid olub. Bu döyüşdə, həmçinin, dəstənin xüsusi təyinatlılarından gizir Rəşad Məmmədov, baş çavuşlar Azər Həsənov, Sabir İmanov, Elnur Məmmədov, Musa Allahverdiyev, çavuşlar Bəhlul Baloğlanov, Səid Həmzəyev, Şəhriyar Mərufov, Vahim İdrisli, Fəxri Əliyev, Emil Heydərov, Novruz Manafov və baş əsgər* Nihad İmanov müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Ramiq qrupun digər hərbi qulluqçuları ilə birgə döyüş meydanından şəhid və yaralı silahdaşlarını nisbətən təhlükəsiz yerə təxliyyə etdikdən sonra Şuşa istiqamətində irəliləyib. Şəhər ətrafındakı təpəlik ərazidə mövqe tutan qrupun şəxsi heyəti düşmənə sarsıdıcı zərbələr endirərək, onun bir neçə atəş nöqtəsini susdurmağa müvəffəq olub. Noyabrın 6-dan 7-nə keçən gecə olduqları mövqelərin ermənilər tərəfindən şiddətli artilleriya atəşinə tutulması nəticəsində Ramiq və digər iki silahdaşı: çavuşlar Pərvin Qasımlı və Rəsul İbişov yaralanıblar.

Çavuş R.Novruzov yaralandığı zaman döyüşçü yoldaşları baş çavuş Telman Soltanov və çavuş Bəxtiyar Qasımovun onu atəş altından çıxararaq, tez bir zamanda göstərdikləri ilk tibbi yardımı bu gün də minnətdarlıq hissilə xatırladığını deyir. Onun bildirdiyinə görə, yaralı hərbi qulluqçularımız gecəni buradakı meşəlik ərazidə qaldıqdan sonra, noyabrın 7-də təxliyyə olunublar: "Əvvəlcə Hadrut qəsəbəsində yerləşən tibb məntəqəsində bizə ilkin tibbi yardım göstərildi. Ardınca Füzuli Rayon Xəstəxanasına, burada bir gün qaldıqdan sonra, noyabrın 9-da bizi Daxili Qoşunların Hərbi Qospitalına gətirdilər. Həkimlərimizin sayəsində sağlamlığım qismən bərpa olunub. Lakin tam sağalmağım üçün ambulator müalicəmi davam etdirirəm".

Fəxr ediləcək döyüş yolu keçən vətənpərvər qazimizə təzliklə sağlamlığına qovuşmasını və bundan sonrakı həyatında ona ancaq uğurlar arzulayırıq.

**mayor Anar Əhmədov**

# BÖLÜK DÖYÜŞ XİDMƏTİNDƏ PEŞƏKARLIQ NÜMAYİŞ ETDİRİR

25033 saylı hərbi hissənin xidməti-döyüş fəaliyyəti ilə fərqlənən qabaqcıl bölmələrindən biri komendant bölüyüdür. Döyüş bayrağının, avtomobil və zirehli texnika parkının, anbarlarının mühafizə və müdafiəsi komendant bölüyü tərəfindən təmin olunur. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölmənin şəxsi heyəti daim ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir. Bölük komandiri kapitan Həmid Rəhimov bildirdi ki, bölük döyüş xidmətinin yerinə yetirilməsində yüksək peşəkarlıq nümayiş etdirir.





Bölük komandiri dedi ki, hərbi şəhərciyin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularla bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Hərbi qulluqçuların sağlamlığı, mənəvi-psixoloji durumunu əsas şərt kimi dəyərləndirən kapitan H.Rəhimov digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi. Keçirilən məşğələlərin şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına təkan verdiyini bildirdi: "Həftəlik məşğələ cədvəlinə uyğun olaraq, hərbi qulluqçularla atəş hazırlığı, ixtisas hazırlığı, fiziki hazırlıq, ictimai-siyasi hazırlıq və Daxili Qoşunların taktikası məşğələləri keçirilir. Təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən şəxsi heyət postda xidmət apararkən daha ayıq-sayıq, çevik olur, tapşırılmış obyektin mühafizəsini qüsursuz yerinə yetirir".




Xidmətə cəlb edilməzdən əvvəl müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır: "Ümumiyyətlə, xidmətə cəlb ediləndək hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin, tərbiyə bölməsinin təlimatçı-psixoloqu leytenant İxtiyar Ağayev də xidmətə cəlb olunan şəxsi heyətlə fərdi qaydada söhbət aparır".

Postların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, həmçinin, asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliə olunması, stolüstü oyunların oynanılması diqqət mərkəzində saxlanılır.

Bölük komandiri vəzifələrinin icrasında fərqlənən hərbi qulluqçulardan baş çavuş Ağamirzə Hüseynov, baş əsgər Nurlan Səmədli, əsgərlər Tural Həmidov və Şahlar İbrahimovun adlarını qeyd etdi.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# İŞGÜZAR KEYFİYYƏTLƏRƏ MALİK HƏRBİ QULLUQÇU

Gizir Şairə Əliyeva 64412 saylı hərbi hissənin savadına, intizamına görə fərqlənən qadın hərbi qulluqçularından biridir. O, 1987-ci il sentyabrın 7-də Ermənistan Respublikasının Böyük Qarakilsə rayonunda anadan olub. Orta təhsilini Bakı şəhərindəki 178 saylı tam orta məktəbdə alan Şairə 2005-ci ildə təhsilini uğurla başa vurub, Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olunub.



Hələ uşaqlıq illərindən qadın hərbi qulluqçulara rəğbətlə baxan Şairə qəlbinin dərinliyində özünün də nə zamansa hərbçi olacağına inanırdı. Elə bu arzu, bu istəklə də 2013-cü ildə Daxili Qoşunların 64412 saylı hərbi hissəsində həqiqi hərbi xidmətə qəbul olunur.

Artıq 8 ildir ki, hərbi hissənin mərkəzləşdirilmiş yanacaq-sürtkü materialları anbarında məsul icraçı vəzifəsində xidmət edən qadın hərbi qulluqçu öz işinə məsuliyyətlə yanaşır. Xidmətini daxili işlər nazirinin və daxili qoşunlar komandanının müvafiq əmrlərinin tələblərinə əsasən quran gizir Ş.Əliyeva qeydiyyat sənədlərinin qorunub saxlanılmasına, anbarlardan maddi-texniki vasitələrin buraxılması üzrə sənədlərin düzgün tərtibinə, anbarlara daxil olmuş maddi-texniki vasitələrin qeydiyyat kitabına vaxtlı-vaxtında mədaxil edilməsinə nəzarət edir. Peşə vərdişlərini təkmilləşdirmək üçün daim öz üzərində çalışan hərbi qulluqçu Daxili Qoşunlarda xidmətlə qürur duyur. Nümunəvi xidmətinə görə hərbi hissə komandiri tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

**64412 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR

## - YENİLİKLƏR -

### Rusiya "Marker" robotlarını avtonom rejimdə sınaqdan keçirib

Rusiyada "Marker" robotlarının inkişafı prosesi davam edir, bu dəfə platformaları avtonom rejimdə sınaqları keçirilib. Ordu.az xəbər verir ki, bu barədə "RİA Novosti" agentliyi öz mənbələrinə istinadən məlumat yayıb.



Testin bir hissəsində robotlar müstəqil olaraq, insanların iştirakı olmadan vəzifələrini icra edib, hədəfləri təyin edib, tapşırıqları öz aralarında paylayıb və digər fəaliyyətləri yerinə yetiriblər.

Sınaqların müvəffəqiyyətlə başa çatdığı bildirilir, növbəti mərhələdə robotların kəşfiyyat PUA-ları ilə birlikdə sınaqları keçiriləcək.

### "Lockheed Martin" korporasiyası "OpFires" raket kompleksini nümayiş etdirib

ABŞ-ın "Lockheed Martin" korporasiyası ABŞ Ordusunun "Operational Fires" (OpFires) proqramı çərçivəsində hazırlanan yer bazalanmalı hipersəs silahları sisteminin yeni görüntüsünü nümayiş etdirib.



"Poliqon" xəbər verir ki, proqrama əsasən buraxma qurğusu üç ədəd hipersəs raket blokunu daşıyacaq. Döyüş başlığı vizual olaraq oxşardır və çox güman ki, hava bazalanmalı AGM-183A ARRW hipersəs raketinin analoqudur.

Raketin uçuş sınaqlarına 2022-ci ildə başlanması planlaşdırılır.

# ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞININ QORUNMASI BAŞLICA VƏZİFƏDİR

Hərbi hissələrdə xidmətin yüksək səviyyədə yerinə yetirilməsində, şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır.

12318 saylı hərbi hissənin tibb xidməti vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Hərbi hissənin tibb xidmətində tibb məntəqəsinin rəisi tibb xidməti kapitanı Emil Fərmanlı şəxsi heyətin tibbi təminatını həyata keçirir. O, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena tədbirlərinin həyata keçirilməsinə, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.



Məntəqə rəisi bildirdi ki, gündəlik olaraq xidmət öz işini hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, aidiyyəti üzrə tapşırıqlar verilir. Ambulator xəstələrin qəbulu, onlara yardım göstərilməsi, təyinatların icrasına nəzarət, həmçinin, xəstələrin tibb kitabçalarında qeydiyyatların aparılması həyata keçirilir. Eyni zamanda, stasionar xəstələrə nəzarət olunur, təyinatların verilməsi, onların vaxtlı-vaxtında yerinə yetirilməsi diqqətdə saxlanılır. Ehtiyacı olan xəstələrin daha dərin müayinəsi məqsədilə seçilərək Daxili Qoşunların Hərbi Qospitalına göndərilməsi təmin edilir.

Tibb xidmətinin tibb məntəqəsində sanitar-təlimatçı dezinfektor baş çavuş İlqar Adıgözəlov qoyulan tapşırıqları uğurla və vaxtında icra edir. O, 2004-cü ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarında xidmətini davam etdirir.

Hərbi hissədə sanitar-gigiyenik vəziyyət qənaətbəxşdir və hər zaman nəzarətdə saxlanılır. Belə ki, baş çavuş İ.Adıgözəlov tərəfindən mütəmadi olaraq, əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir. Respublikamızda davam edən pandemiya ilə əlaqədar olaraq bu işlər gündəlik həyata keçirilir. Qeyd edim ki, hərbi hissədə şəxsi heyətin COVID-19 virusu əleyhinə vaksinasiya olunması prosesi tam olaraq başa çatdırılıb.

Tibb xidməti tərəfindən həyata keçirilən profilaktik tədbirlər şəxsi heyətin səhhətinin etibarlı əllərdə olduğunu deməyə əsas verir.

**kapitan Xədicə Hacızadə**

# MİNNƏTDARLIQ

*Hörmətli redaksiya!*

Daxili Qoşunların Hərbi Qospitalı hərbi qulluqçularımızın və onların ailə üzvlərinin, habelə veteranlarımızın sağlamlığı keşiyində fədakar fəaliyyət göstərir. Qospitalın tibbi personalı burada müalicə olunan xəstələrə öz qayğısını əsirgəmir.

Oğlum, Daxili Qoşunların zabiti kapitan Kənan Daşdəmirov bu günlərdə qospitalın cərrahiyyə şöbəsində səhhətindəki problemlə bağlı müalicə olunub. Cərrahiyyə şöbəsinin baş ordinatoru, ehtiyatda olan tibb xidməti mayoru Azad Azadov tərəfindən övladım cərrahi əməliyyat edilib. Peşəkar və təcrübəli həkim, qoşunların sabiq hərbi qulluqçularının da yaxşı tanıdıqları, hörmətlə yanaşdıqları A.Azadovun zəhməti sayəsində oğlumun sağlamlığındakı problem aradan qaldırılıb, səhhəti yaxşılaşıb.

A.Azadov və onun timsalında cərrahiyyə şöbəsinin tibb personalına qoşunların veteranı olaraq dərin minnətdarlığımı bildirirəm.

Xüsusən indiki pandemiya şəraitində, eləcə də qazilərimizin sağlamlığının bərpasında həkimlərin və digər tibbi heyətin əməyi hörmət və ehtirama layiqdir. Onlara hər birimiz üçün gərəkli olan vacib missiyanın yerinə yetirilməsində uğurlar arzulayıram.

**Çingiz Daşdəmirov**
Daxili Qoşunların
Veteranlar şurasının sədri

*Həkim məsləhəti*

# GİLƏMEYVƏLƏR KORONAVİRUSDAN SONRA BƏRPA PROSESİNİ SÜRƏTLƏNDİRİR

Koronavirus infeksiyasını keçirən insanlar üçün yüksək miqdarda C vitamini və digər antioksidantlar olan giləmeyvələr yemək faydalıdır.

Bunu AZƏRTAC "MedikForum"a istinadla xəbər verir.

Giləmeyvələrin COVID-19-dan sonra tam sağalma və bərpanı sürətləndirməsinə kömək etdiyi barədə həkim-terapevt, qidalanma mütəxəssisi Rimma Moysenko verdiyi müsahibəsində bildirib. Onun sözlərinə görə, giləmeyvədə olan antioksidantlar - məsələn, poliprenollar, polifenollar xəstəlikdən sonra bərpa olunan orqanizmə güc qatır. Onları əldə etmək üçün tünd rəngli giləmeyvələr – qarabəhərli quşarmudu, qara və qırmızı qarağat, moruq yemək faydalıdır.



Giləmeyvələrlə yanaşı, həkim xəstəlikdən sonra sağalanlara çox miqdarda tərəvəzlər, göy-göyərti, meyvəköklü və kökyumrulu bitkilərin gövdə və yarpaqlarını qəbul etməyi məsləhət görür. Onların sayəsində orqanizm lif, B9 vitamini, fol turşusu, əlavə antioksidantlar alır. Bütün bunlar, həmçinin, koronavirus xəstəliyindən sonra insanın yaxşı formaya qayıtmağını sürətləndirir.

# Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik Namiq Abdullayevə **qardaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası və 12318 saylı hərbi hissənin komandanlığı kapitan Şaiq Nəzərova **atası, ehtiyatda olan polkovnik Zahid Nəzərovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan baş gizir Elçin Qasımovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestrinin şəxsi heyəti gizir Fərhad Bağırova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000